# ÜRƏYİM DEYİR Kİ...

## Yubileyiniz mübarək, Tağı müəllim!



**Onun haqqında yazmaq o qədər də çətin deyil, təbii ki, ilk baxışda, ilk anda. Amma bir neçə il bundan öncə onun haqqında hamı yazırdı. Özü də necə bacarır, nə istəyir və nə cür istəyir...**

İndi də yazırlar və bunu hamı da oxuyur. Daha doğrusu, marağı olanlar oxuyur. Gerçəkdə isə indi onun barəsində yazmaq çox çətindi. Bunu mən öz yazı təcrübəmdən, özümün həyata, insanlara baxışımdan çıxış edərək deyirəm. Və elə bu məqamda da onun adını da açıqlamaq istəyirəm:

- Tağı Məhəmməd oğlu Əhmədov!

Bəli, onu çoxdan tanıyıram. İş təcrübəsinə də, ətrafdakılara münasibətini də az-çox bilirəm. Və tam səmimi etiraf edim ki, onunla daha yaxından tanışlığım, onun iç dünyasını görmək imkanım Tağı müəllimin dostu və həmyerlisi, mənə çox doğma insan olan Qabil Əhməd oğlu Əsgərovla bağlı kitab hazırlayanda oldu. Bir xeyli söhbətləşdik. Tağı müəllim uşaqlıq illərinə - doğulduğu Şahbuz rayonuna, onun Güney Qışlaq kəndində keçən və bu kəndlə bağlı olan xatirələrinə qayıtdı. Yaddaşında ötüb keçənlər təzələndi onun... Mən o xatirələri dinlədikcə özüm də uşaqlığıma qayıtdım. Kəndimi gedib, gəzib gəldim... Bax, onda bütünlüklə anladım ki, Tağı Əhmədovun iç dünyası sözlə, musiqiylə, xatirələrlə və bir də səmimiyyətlə nəfəs alır. Həmin o dünya o qədər mənalı, o qədər həssasdır ki, ona yaxınlaşdıqca özündən asılı olmadan sən də o dünyanın müsafirlərindən birinə çevrilirsən...

Hə, sual verə bilərsiz ki, bu yazını yazmaqda məqsəd görəsən nədi? Mən elə bu sualı gözlədiyimə görə də çılpaq şəkildə cavab verirəm:

Öncə Azərbaycanın dəyərli bir ziyalısını, "Şöhrət" ordenli əməkdar mühəndisini, Nəqliyyat Akademiyasının akademikini, "Fəxri dəmiryolçu"nu 70 yaşının tamam olması münasibətilə təbrik etmək istəyirəm. İkinci, maraqlı bir insanın həyatına özümün səmimi münasibətimi dilə gətirmək istəyirəm. Üçüncüsü, şeirlə, ədəbiyyatla, musiqiylə nəfəs alan, onları öz dünyasının bir parçasına çevirən bir insanın zəngin mənəvi varlığını bilməyənlərə xatırladıb yaddaşlarda təzələyirəm. Və nəhayət, hər telefon zəngimdə mənə səmimi və ərkyana bir şəkildə "Eşidirəm, Əbülfət" deyən bir insanın ad gününə söz hədiyyəmi çatdırmaq ürəyimdən gəlib keçir. Mən də bu istəyə əməl edirəm...

Deməli, bəlkə də bir-iki il öncə mən bu yazını yazmazdım. Sadəcə, ya üzbəüz, ya da telefonla onu təbrik edərdim. İndi isə ürəyim mənə pıçıldadı ki, Tağı Məhəmməd oğlunu "Ədalət"in səhifəsindən təbrik edim, ona "yubileyiniz mübarək" deyim. Hər halda bu mənim ürəyimin istəyidir və mən də ona əməl edirəm:

**- 70 yaşınız mübarək olsun, Tağı müəllim! 100 yaşayın!**

**Əbülfət MƏDƏTOĞLU**

Ədalət.-2017.-3 mart.-S.3.